# TERMİNOLOJİ SÖZLÜKLƏRİN TƏRKİB ELEMENTLƏRİ VƏ TƏRTİB PRİNSİPLƏRİ

Ziya BƏHMƏNLİ *

**Xülasə:** Bu məqalə terminoloji lüğətlərdə əksər vaxtlarda rast gəlinən terminlərin hansı prinsiplərlə seçilməsi məsələsindən bəhs olunur. Terminoqrafiyada terminlərin seçilməsi müxtəlif üsul və vasitələrlə aparılır. Belə ki, istənilən sahə üzrə terminoloji lüğətlər tərtib olunarkən əsas diqqət mərkəzində saxlanılan məsələlərdən biri də sözlük və sözlüyün tərtibidir. Dil matrerialının düzgün və dəqiq seçilməsi və daha geniş yayılmış sahələr üzrə sözlüklərin olması elmi-texniki mətnləri oxumaq, anlamaq və yiyələnməyin əsas şərtidir. Xüsusi funksiyaya məxsus mətnlərin anlaşılmasında terminoloji leksikasının böyük əhəmiyyəti vardır. Buna görə də müxtəlif sahələri əhatə edən lüğətlərin hazırlanmasında nəyin seçim vahidi kimi seçilməsi, seçim qaydalarının müəyyən edilməsi və texnikasının təyin edilməsi kimi məsələlər həll edilməlidir. Terminoqrafiyanın sözlükləri elə terminlərdən təşkil olunur, terminlər yalnız elm və müxtəlif texniki sahələrə aid olan xüsusi leksik vahidlər yox, insanların fiziki və zehni fəaliyyəti, əməyi ilə əlaqəli olan termin funksiyalı sözlərin məcmusu nəzərdə tutulur. Terminoloji lüğətlərə sözlüklər seçilərkən nəşr olunduğu sahə üzrə işləklik və aktuallıq kəsb edən terminlərə üstünlük verilməlidir. Beləliklə, terminoqrafiyada sözlüklərin düzgün və dəqiq seçilməsi onun birbaşa keyfiyyətinə təsir edir.

***Anahtar Kelimeler:*** *Uluslararası İlişkiler, Kamu Diplomasisi, Akrabalık, Soydaşlık*

## Composition Elements And Composition Principles of Terminology Dictionaries

**Abstract:** This article talks about the principles of choosing the terms that are often found in terminological dictionaries. the selection of terms in terminography is done by various methods and means. Thus, one of the issues that is kept in the main focus when compiling terminological dictionaries for any field is the compilation of a dictionary. The correct and accurate selection of language materials and the availability of dictionaries for more widespread areas are the main conditions for reading, understanding and mastering scientific and technical texts. The terminological lexicon has a special importance in the understanding of texts belonging to a special function. Therefore, in the preparation of dictionaries covering various fields, issues such as choosing what to choose as a selection unit, determining the selection rules, and setting the technique should be resolved. Terminography dictionaries are composed of such terms, terms are not only special lexical units related to science and various technical fields, but a set of functional words related to the physical and mental activity and labor of people. When choosing dictionaries for terminological dictionaries, preference should be given to terms that are functional and relevant in the field of publication. Thus, the correct and accurate selection of dictionaries in terminography directly affects its quality.

***Key Words:*** *Terminology, Dictionary, Term, Glossary, Science.*

## Giriş

Terminologiya məfhumu yalnız elm və texnikanın müxtəlif sahələrində işlənən xüsusi funksiya daşıyan sözlər deyil, həm də insanın zehni və fiziki fəaliyyəti, əməyi ilə bağlı olan termin hüququna malik sözlərdir. Aydındır ki, dilin həm keyfiyyət, həm də kəmiyyətcə dəyişməsi və zənginləşməsi prosesi daha çox terminoloji leksika sahəsində mümkün olur. Terminoqrafiyada sözlüklər tərtib olunarkən aid olunduğu sahə ilə bağlı mütəxəssislərin eləcə də elm və texnikanın müxtəlif problemləri ilə maraqlanan insanların istifadəsinə asanlıqla xidmət etməlidir. Sözlüklər tərtib olunan sahələr üzrə daha çox aktuallıq kəsb edən və əsasən fəal işlənənlərə üstünlük verilməlidir. Rast gəldiyimiz əksər terminoqrafik mənbələrdə sözlüklərə oxşar təriflər verilir. Ümumilikdə götürsək sözlük sözlərin müəyyən olunmuş qayda, əlifba sırası ilə düzülüşüdür.

## 1. Terminoqrafiyada sözlük məsələsi və onların seçilmə prinsipləri

Lüğətlərin tərtib prinsipləri müəyyən olunarkən sözlük və onların hansı prinsip üzrə seçilib sistemləşdirilməsi əsas məsələlərdən hesab olunur. Sözlüklərin lüğətə uyğun seçilməsi, təkcə terminoloji lüğətlərin deyil, digər lüğətlərin də əsas vəzifələrindəndir. Terminoqrafiya lüğətlərin tərtib olunan elm sahəsinə uyğun olması, demək olar ki, həmin nəşrin keyfiyyətinə və aktuallığına təsir edən əsas əlamətlərdəndir. Terminoloji lüğətlərdə sözlüklərin hazırlanmasında əsasən iki prinsiplərdən istifadə olunur:

---

* Bakı Avrasiya Universiteti, Nəzəri dilçilik və türk dilləri kafedrasının müəllimi, ziya_behmenli@mail.ru

DOI :10.30546/100981.2024.017

“1) Müəyyən sahə ilə bağlı əvvəllər nəşr edilmiş terminoloji lüğətlərin sözlüyünün yenidən tənqidi surətdə nəzərdən keçirilməsi, yeni terminlərin əlavə edilərək təkmilləşdirilməsi;

2) Orjinal mətnlərin, dərsliklərin, elmin ayrı-ayrı sahələrinə dair yazılmış elmi əsərlərdən lazımi terminlərin seçilib sistemə salınması. (Sadıqova, 2023:76)

Qeyd olunan hər iki prinsiplərin terminoloji lüğətlər tərtib olunarkən nəzərə alınması əhəmiyyətlidir. Çünki, hər hansı bir sahə ilə bağlı yazılacaq yeni lüğət özünəqədərki lüğətlərlə müqayisə olunmalı həmin lüğətdə olan çatışmamazlıqlar çıxdaş edilməli, yeni əlavə olunacaq terminlər sistemləşməli, qeyd olunan sahə ilə bağlı lazımi mətnlər nəzərdən keçirilməlidir.

Terminoloji lüğətlərin sözlüyü tərtib olunduğu zaman əsas diqqətdə olunan məsələlərdən biri də tərtib olunacaq sahə ilə bağlı həmin sahənin mütəxəssislərinin, eləcə də elm və texnikanın müxtəlif problemləri ilə maraqlanan oxucular tərəfindən rahat istifadə edə bilməsi üçün nəzərdə tutulmalıdır. Sözlüklərin lüğətə uyğun seçilməsi, yalnız terminoloji lüğətlərin deyil, demək olar ki əksər lüğətlərin əsas vəzifələrindəndir. Lüğətlərdə sözlüklərin tərtib olunan elm sahəsinə uyğun olması, həmin sahədə işlənən əsas terminləri əhatə etməsi elə onun birbaşa keyfiyyətinə təsir edən əsas xüsusiyyətlərdəndir. Lüğətdə sözlük ən aparıcı elementdir. Demək olar ki, əksər lüğətlərin hazırlanması ilə bağlı olan elmi ədəbiyyatda sözlüklərə standart tərif verilir. Sözlüklər sözlərin aşkar olunmuş qayda, əlifba sırası ilə düzülüşüdür. Bütün məqamlarda lüğətlərdə sözlüklər yalnız əlifba sırası ilə deyil, yuva üsulu ilə də verilir. Bu üsulun bir sıra çatışmayan cəhətləri vardır. Demək olar ki, lüğətin məzmunu birbaşa olaraq sözlüklə bağlıdır. H.Həsənov sözlük termininin dilçilikdə əsas iki mənada işlədildiyini qeyd etmişdir.” 1. Lüğət istilahının sinonimi, sözlərin əlifba sırası ilə düzülərək izah edilməsi; 2. Lüğətə daxil edilən söz və ifadələrin siyahısı mənasında” (Həsənov, 1999: 160).

Alimin qeyd etdiyindən bu qənaətə gəlmək olar ki, lüğətdə sözlüklər daha çox əlifba sırası ilə düzülür, ancaq bütün lüğətlərdə terminlər haqqında şərh verilmir. Nümunə kimi tərcümə terminləri lüğətlərini göstərə bilərik. Bu tipdə tərtib olunmuş lüğətlərdə verilən terminlər əsasən bir dildə işlənən terminlərin digər dillərdə ekvivalenti əks olunur. Yəni söz və ifadələrin tərcümə olunacaq dillərdə necə adlanmasına xidmət edir. H.Həsənova görə sözlüyün tərtibində iki cəhəti nəzərə almaq lazımdır.

“1. Sözlərin seçilmə prinsipini yaratmaq;

2. Seçilən sözün tələbatın profilinə uyğunluğunu təmin etmək” (Həsənov, 1974:70).

Lüğətdə bəlkə də ən mübahisəli məsələlərdən biri də sözlüklərin seçilməsidir. Lüğətə hər termin daxil edilə bilməz. Bu sahəyə aid ədəbiyyatlarda lüğətə hansı terminlərin daxil edilməsi haqqında müxtəlif fikirlər mövcuddur. Belə ki, terminoloji lüğətlərin tərtibində sözlük məsələsi digər lüğət növləri ilə müqayisədə asan həll olunur. S. Sadıqovaya görə terminoloji lüğətlərin sözlüyünün hazırlanmasında iki prinsipin aparıcı olduğunu qeyd edir:

“1) Müəyyən sahə ilə bağlı əvvəllər nəşr edilmiş terminoloji lüğətlərin sözlüyünün yenidən tənqidi sürətdə nəzərdən keçirilməsi, yeni terminlərin əlavə edilərək təkmilləşdirilməsi;

2) Orjinal mətnlərin, dərsliklərin, elmin ayrı-ayrı sahələrinə dair yazılmış elmi əsərlərdən lazımi terminlərin seçilib sistemə salınması. (Sadıqova, 2023:76)

Sözlük seçiləndə müəyyən prinsiplər vardır ki, lüğət tərtib olunarkən onlara əməl olunmalıdır. H.Həsənov həmin prinsipləri aşağıdakı şəkildə təsnif etmişdir:

“1. Əsas sözün varlığının çoxluğu;

2. Onun kommunikativ və məzmun dəyəri;

3. Onun başqa sözlərlə leksik-sintaktik əlaqəsinin müxtəlifliyi yəni birləşmə potensialı;

4. Əsas sözün söz yaratma imkanı aktivliyi və məhsuldarlığı;

5. Dil materiallarının metodik-didaktik zəruriliyi” (Həsənov, 1999: 162)

Sözlüklər özləri də tərtib cəhətdən müxtəlif üsullara ayrılır. Bu üsullar yuva və əlifba üsuludur. “Yuva” üsulu ilə tərtib olunan lüğətlərdə əsasən eyni kökdən düzələn sözlər-eyni növdən olan bir-birinə qohum olan sözlər bir lüğət məqaləsində cəmlənir. “Bir kökə aid olan mürəkkəb sözlər də bir yerdə verilir. Hər bir lüğət məqaləsinin başlığı kök sözdən ibarət olur”( Həsənov, 2005: 393). “Yuva” üsulu ilə sözlərin yerləşdirilməsinin ilk dəfə V.İ.Dal tərəfindən irəli sürülmüşdür. O, sözlərin “sözyaratma” üsulu ilə düzülüşünü qəbul etməmiş, özü yeni qayda tərtib etmiş və bu tərtib etmiş qaydanı “yuva” adlandırmışdır.

Zaman keçdikcə lüğətlərin tərtib prinsipi təkmilləşmişdir. Hal-hazırki dövrdə lüğətlərin sözlüyü daha çox əlifba üsulu ilə hazırlanır. Bu üsul ən əlverişli üsuldur. Əlifba üsulu ilə tərtib olunmuş lüğətlərdə adından göründüyü kimi sözlüklər əlifba sırası ilə sıralanır. Ancaq, bu üsulda eyni kökdən olan sözlərin semantik və sözyaradıcılığı əlaqəsi nəzərə çarpmır. Bəzi alimlər bu üsulu qüsurlu hesab edirlər. Məsələn, V.İ.Dal bu üsulun əlehinədir. O öz lüğətinin "Напутное слово” hissəsində yazır: “Sözlərin əlifba üsulu ilə düzülüşü son dərəcə ağır və qurudur. Ən yaxın və oxşar ifadələr bir-birindən çox uzaq düşür. Orada və burada təklikdə itib batır. Sözlərdə hər cür canlı əlaqə qırılır və yox olur. Burada izahetmə bir neçə dəfə təkrar olunmalıdır. Belə lüğətləri oxumağa taqət qalmır. Onuncu sözdə şüur kütləşir, baş gicəllənir, çünki bizim şüurumuz hərtərəfli şüurlu əlaqə, tədricilik, ardıcıllıq tələb edir” (Həsənov, 2005: 395)

Dilin keyfiyyət və kəmiyyətcə dəyişməsi daha çox terminoloji leksika sahəsində özünü göstərir. Çünki elm və texnika sürətlə inkişaf etdiyi bir dönəmdə yeni texnikaların yaranması nəticəsində yeni terminoloji anlayışlar da formalaşır. Terminoloji lüğətlərdə mövcud olan sözlüklər hər tərəfli əhatəli və tam olmalıdır. Yəni hər hansı bir elm sahəsini əhatə edən termin və anlayışla yanaşı həmin terminin digər variantları verilmirsə, lüğət sözlüklərinin əhatə olunması baxımından məhdud lüğət hesab olunur. Məsələn, lüğətdə “vəzn” termini verilirsə vəznin hansı növləri olduğu vurğulanmalı və izahı göstərilməlidir. Digər bir nümunə kimi botanikaya aid terminoloji lüğətlərdə bir çox ağac, müxtəlif növ bitki adlarını tapmaq mümkün olmadığı kimi zoologiyaya aid terminoloji lüğətlərdə bir sıra ən adi heyvan, quş, balıq və bu kimi adları da tapmaq mümkün olmur. Terminoloji lüğətlərdə sözlüyün seçilməsinə xüsusi diqqət yetirilməlidir. Bu hal həmin lüğətin əsas keyfiyyət göstəricisidir.

“Terminoloji lüğətlər üçün bir-birindən fərqlənən üç növ sözlüyün yaradılması məqsədəuyğunudur.

1. Ali və orta məktəblərin tədris proqramları həcmində terminoloji lüğətlər üçün sözlük;
2. Ayrı-ayrı elm sahələri ilə bağlı terminoloji lüğətlər üçün sözlük;
3. Elmin ümumi sahələrinə aid terminoloji lüğətlər üçün sözlük. (Sadıqova, 2023:80)

Sözlük seçilməsinin ən əsas cəhətlərdən biri lüğətə hansı terminlərin daxil edilməsidir. Belə ki, hər hansı sahə üzrə lüğət tərtib olunmazdan əvvəl ilk öncə lüğətə hansı terminlər daxil edilməlidir. Terminlər daha çox elm sahəsində işlənən və aktual olmalıdır. Yəni ancaq həmin sahədə daha çox işlənən terminlər əks olunmalıdır. Müasir dövrümüzdə bir çox elm sahələrini əhatə edən yüzlərlə lüğətlər nəşr olunmuş və olunmaqdadır. Amma həmin lüğətləri nəzərdən keçirdikdə bəzilərində qeyd etdiyimiz qüsurlara rast gəlmək mümkündür. Bu qeyd olunan qüsurlara yol verilməməsi üçün bir neçə qaydalar vardır ki, onlara əməl olunmalıdır. Həmin qayalardan bir neçəsini nəzərdən keçirək:

Ana dilində sözlük toplanarkən cəmiyyətdə mövcud olan, terminlərin çoxluq təşkil etdiyi sahələr kütləvi informasiya vasitələri, elmi ədəbiyyatda, monoqrafiyada, dəyişilməz qalan terminoloji vahidlərə üstünlük verilməlidir;

Elmi ədəbiyyatda tam terminoloji mahiyyət daşımayan sözləri lüğətə daxil etmək düzgün deyildir;

Lüğətlərdə üstünlük törəmə terminlərə deyil, əsas terminlərə verilməlidir.

**Nəticə**

Beləliklə, qeyd etdiklərimizdən belə bir nəticəyə gəlmək olar ki, zaman ötdükcə elmdə yeni yeni söz və anlayışlar formalaşdıqca, əlbəttə ki, bu yeniliklər özü də terminoloji lüğətçiliyimizə də öz müsbət təsirini göstərir. Biz məqalə boyunca terminoqrafiyada terminlərin seçilmə prinsipləri və tərkib elementləri haqqında bəzi məqamlara aydınlıq gətirməyə çalışdıq. Xüsusilə vurğuladıq ki, terminoloji lüğətlərdə düzgün sözlük seçiminə əməl olunması həmin lüğətin uğurlu olmasının əsas şərtlərindəndir. Müasir zamanımızda elmdə olduqca sürətli inkişaf elmin əksər sahələrində yeni anlayışların formalaşması ilə nəticələnmişdir. Elə buna görə də terminoqrafiyada düzgün termin seçilməsi əsas məsələlərdəndir.

**KAYNAKÇA**

Sadıqova S. (2023) Azərbaycan terminoqrafiyasının konseptual əsasları. Bakı.
Həsənov H. (1999) Azərbaycan lüğətçiliyinin nəzəri əsasları. Bakı.
Həsənov H.(1974) Lüğətlər necə yaranır. Bakı.
Həsənov H.(2005) Müasir Azərbaycan dilinin leksikası. Bakı.